# YENİLƏNƏN PARLAMENT:
# islahatlara adekvat tarixi zərurət

Prezident İlham Əliyevin müxtəlif sahələrdə həyata keçirdiyi islahatlar cəmiyyət tərəfindən təqdir edilir və yekdil şəkildə dəstəklənir.

Sözün bütün mənalarında həmişə xalqının yanında olan Prezident İlham Əliyevin islahatları yeni dövrün tələbinə və ictimai sifarişlərə əsaslanır. Dövlətimizin hərtərəfli inkişafına xidmət edən struktur islahatlar xalqımız tərəfindən həmişə çox müsbət qarşılanıb.

2019-cu il isə xüsusilə inqilabi islahatlar və yüksək tərəqqi indeksi ilə yaddaqalan oldu desək, yanılmarıq. Belə ki, cari ildə Prezident İlham Əliyev xalqın rifahını daha da yüksəltmək, güzəranını yaxşılaşdırmaq məqsədilə çoxsaylı tarixi sərəncamlara imza atıb.

Ötən gün Prezidentin son dövrlərdə həyata keçirdiyi kompleks islahatlara müvafiq olaraq ətrafında böyük sosial elektorat toplamış hakim Yeni Azərbaycan Partiyası (YAP) ölkəmizin siyasi həyatında çox mühüm önəm daşıyan bir addım atdı.

Baş Nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədovun mətbuata açıqlamasında da qeyd etdiyi kimi, YAP və Siyasi Şura vətəndaş mövqeyini, milli maraqların, dövlət maraqlarının bütün maraqlardan üstün tutulmasını nümayiş etdirərək partiyanın da geniş şəkildə təmsil olunduğu və çoxluq təşkil etdiyi qanunverici orqanın yeniləşməsinin zəruriliyini aydın şəkildə ifadə edib. Bu zərurətdən




irəli gələrək parlamentdə YAP-ı təmsil edən deputat korpusuna parlamentin buraxılması xahişi ilə Azərbaycan Prezidenti İlham Əliyevə müraciət etməsini tövsiyə edib.

Şübhəsiz ki, Azərbaycanın müstəqillik dönəmində ilk dəfə olaraq parlamentin buraxılması kimi tarixi bir zərurətə ehtiyac duyulması müasir dövrlə ayaqlaşmaq və Prezidentin müəllifi olduğu islahatları daha da sürətləndirmək məqsədi daşıyır.

Azərbaycan xalqı təbii ki, YAP-ın qərarlarına daim saygı ilə yanaşır və ətrafında yumruq kimi birləşdiyi bu mötəbər siyasi istinadgahın ideyalarına hər zaman etibar edir.

Azərbaycan cəmiyyəti əmindir ki, YAP-ın bu qərarı respublikamızın inkişaf dinamikasının daha da sürətlənməsinə hesablanıb.

Son dövrlərdə böyük sosial paketlərin həyata keçirilməsindən, struktur və kadr islahatlarının reallaşmasından sonra qanunvericilik sahəsində də ciddi müsbət dəyişikliyin olması cəmiyyət tərəfindən gözlənilən idi. İndiyədək hakimiyyətin icra və məhkəmə sahələri üzrə həyata keçirilən islahatların ardının qanunvericilik hakimiyyəti olan Milli Məclisin buraxılaraq keyfiyyət və tərkibcə dəyişilməsi ilə davam etməsinə qərar verilməsi məntiqi qanunauyğunluq idi.

YAP Siyasi Şurası da məhz buna görə dövlət başçısının müəllfi olduğu islahatların qanunverici hakimiyyəti də əhatə etməsini məqsədəuygun hesab edərək bu tarixi qərara imza atıb.

Konstitusiyaya nəzər salsaq, Əsas Qanunumuza edilən son dəyişikliklərə əsasən, Azərbaycan Prezidentinin parlamenti müəyyən şərtlər əsasında buraxmaq səlahiyyətləri var. YAP Siyasi Şurası da məhz Prezidentin Milli Məclisi buraxmaq səlahiyyətinə malik olmasını nəzərə alaraq bununla da növbəti mərhələdə qanunvericilik sahəsində də mühüm islahatların gerçəkləşəcəyini hesab edir.

Qeyd edək ki, YAP Azərbaycanın siyasi həyatında indiyədək bir bir çox yeniliklərə imza atıb, taleyüklü məsələlərdə qəti qərarlar qəbul edib. Azərbaycan parlamentarizmi tarixində ilk dəfə Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkiləri ənənəsinin müəllifliyi yenə də müstəqillik çağımızın ən böyük siyasi təşkilatına -YAP-a nəsib oldu. Əlbəttə, bu qeyri-adi bir fakt deyil və dünya praktikasında tez-tez rastlanan bir təcrübədir. Mövzu ölkənin inkişafı naminə köklü müsbət dəyişikliklər, müasirləşmə və islahatlar olduğuna görə, təbii ki, Azərbaycan cəmiyyəti də YAP-ın bu tarixi qərarını dəstəkləyəcək.

Müasir çağın tələbinə və xalqın istəyinə əsasən, islahatların uğurla reallaşması üçün başlıca şərt həm də parlamentin keyfiyyət və məzmunca yenilənmiş qanunlar qəbul etməsidir. YAP-ın Siyasi Şurasının qərarına əsasən, Milli Məclis ölkədə Prezident İlham Əliyev tərəfindən aparılan islahatlarla ayaqlaşa bilmədiyinə, son aylar həyata keçirilən siyasətə adekvat olmadığına görə, müasir çağın tələbinə, xalqın istəyinə əsasən, bundan sonra islahatların uğurla reallaşması ancaq tərkibcə və mahiyyətcə dəyişən parlamentin keyfiyyət və məzmunca yenilənmiş qanunlar qəbul etməsi ilə mümkün olacaq.

✍ **Sevinc Abdullayeva,**
***"İki sahil"***